**Aysel MƏHƏRRƏMOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**lev.sabachka814@mail.ru**

# MƏDİNƏ GÜLGÜNÜN POEMALARINDA GÜNEYDƏ MİLLİ-AZADLIQ HƏRƏKATININ TƏRƏNNÜMÜ

XX yüzillik İranın tarixində keşməkeşli, siyasi hadisələrlə dolu dövr idi. Birinci Dünya müharibəsi, hələ ondan qabaq, yüzilliyin əvvəlindən başlayaraq Səttarxan hərəkatı zamanı və ondan sonrakı illərdə İranın şimal əyalətlərində demokratik qüvvələrə qarşı hücumu daha da şiddətlənir.

Xalqın tarixində elə hadisələr olur ki, əsrlər keçsə də, sonrakı nəsillər onu unutmur, daim xatırlayaraq qan yaddaşlarına əbədi həkk edirlər. Belə hadisələrdən biri də 1945-1946-cı illərdə Güney Azərbaycanda milli-azadlıq hərəkatının oyanması, nəticədə Milli hökumətin qurulması idi.

Bu sahədə bir sıra yazıçı və şairlərin – Ə.Tudə, S.Tahir, B.Azəroğlu, M.Gülgün, F.Sadıqzadə, H.Billurinin uğurlarını qeyd etmək olar.

Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan M.Gülgün ədəbiyyata ölkədə gedən Milli Qurtuluş hərəkatının dalğaları qanadında gəlmişdir. O, Güney Azərbaycanda müasir demokratik poeziyanın yaranmasında özünəməxsus yeni üfüqlər açan şairələrdən biri idi.

Mədinə Gülgünün poemalarının bir qismi bu hərəkatın tərənnümünə həsr olunmuşdur. “Savalanın ətəklərində”, “Pərvanə” adlı poemaları İran inqilabı mübarizəsindən bəhs edir. Hər iki əsərin baş qəhrəmanlarıı qadınlardır.

“Savalanın ətəklərində” poeması 1950-ci ildə qələmə alınmışdır. Bu poema Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan qəhrəman ana və bacılarımıza həsr olunur. İran

irticasının amansız zülmünə qarşı Cənubi Azərbaycan xalqının namuslu oğul və qızları həmişə birlikdə mübarizə aparmış, öz milli saflığını birlikdə qoruyub mühafizə etmişlər. Poemanın baş qəhrəmanı olan Səriyyə Azərbaycan qadınının dərin vətənpərvər, hünər təcəssümüdür.

Mədinə Gülgünün milli-azadlıq hərəkatının tərənnümünə həsr etdiyi poemalardan biri də 1955-ci ildə yazdığı "Pərvanə" poemasıdır. Poemanın əsas qəhrəmanı Pərvanədir. O, vətənini sevən, xalqının xoşbəxtliyi uğrunda daima mübarizə aparan gənc qızdır. Pərvanə Azərbaycan xalqının xoşbəxtliyi, birliyi, dincliyi üçün mübarizəyə başlayır. Azadlıqsevər qız şütüyən tankın qarşısını kəsmək üçün onun önünə atılmaqdan da qorxmur. Yaralansa da, geri çəkilmir.

Milli-azadlıq hərəkatına yenicə qoşulmuş, azadlıq uğrunda mübarizə aparan ilk qəhrəmanın məhz qız olması təsadüfi deyil. Pərvanə gənc Mədinənin də sıralarında olduğu Güney Azərbaycanın mübariz gənc qızlarının ümumiləşmiş obrazıdır.

Mədinə Gülgün əsərlərində milli-azadlıq hərəkatında iştirak edən qəhrəmanların surətini yaratmaqla onları əbədiləşdirmişdir. "Firidun" poeması məhz bu məqsədlə yazılmışdır. Poemada Azərbaycan xalqının milli qəhrəmanı olan Firidun İbrahimlinin ictimai və inqilabi fəaliyyətindən, xalqa sonsuz məhəbbətindən söz açılır. Poema böyük bir dövrü – təqribən 1925-1946-cı illəri əhatə edir. Bu dövr Cənubi Azərbaycanda ən mürəkkəb siyasi və ictimai hadisələrin cərəyan etdiyi dövrdür. Şairə Firidunun timsalında Cənubi Azərbaycanın inqilabçı gənc nəslinin mərdliyini, qəhrəmanlığını böyük sevgi ilə təsvir etmişdir.

Hər hansı bir dövrdə olur-olsun xalqın qəhrəmanlıq keyfiyyətlərini parlaq şəkildə təzahür etdirən böyük inqilablar ədəbiyyat və incəsənətin mühüm mövzularından biri olmuş və bu qəhrəmanlıq ənənələrini canlandıran sənətkar nəsillər üçün də xalqın keçdiyi tarixi mübarizələr yolunu aydınlaşdırmış, qiymətləndirmiş olur.

M.Gülgün “Dastana çevrilmiş həyat” poemasını da bu məqsədlə yazmışdır. Poemanın əsas qəhrəmanı olan Səhənd öz amalı yolunda məşəqqətlərə sinə gərən mübariz bir insandır. Vətənin azadlığı üçün çarpışan, həbs edilən, lakin amalından, məqsədindən, qayəsindən dönməyən bu gənc fədai düşünür ki, onun həyata keçməyən arzularını mütləq gələcək nəsil reallaşdıracaq. Bağışlanmaq üçün ərizə yazmaqdan da imtina edir.

M.Gülgünün poemalarında təsvir olunan gənclər vətənin taleyini düşünərək mübarizəyə qoşulan, dar ayaqda geri çəkilməyən, vətən, xalq yolunda ölməyi ən böyük səadət hesab edən xalq qəhrəmanlarıdır.

**Aysel Maharramova**

## REFLECTIONS OF NATIONAL INDEPENDENCE MOVEMENTS IN THE SOUTH IN THE POEMS OF MADINA GULGUN

***Summary***

The main concept of Madina Gulgun's work was Homeland. Her poems were about the struggle, independence and the fight for the Homeland. Socio-political motives are very strong in Gulgun's poetry in the $50^s$ and $60^s$. This was very natural for a poet who came from the political struggle to literature. Hence, most of her poems are of this type. Her poems “Foothills of the Savalan”, “Parvana”, “Firidun” are about the struggle of the Iranian revolution.